بسم الله الرحمن الرحيم

14 məsumun (ə) həyatı

# İmam Rza (ə)




Kitabın adı: İmam Rza (ə)
Tərcümə edən: Seyyid Zahir Cavadov
Çap tarixi: 2018
Çap növbəsi: Birinci
Tiraj: 1000

Издательство «Свет»
Типография «Махаон», 2018

ISBN 5-18-100518-3



## İmam Rzanın (ə) valideynləri

İmam Rzanın (ə) atası imam Musa ibn Cəfər (ə), anası isə Nəcmədir.
Nəcmə imam Kazimlə (ə) ailə qurmazdan əvvəl Həmidədən İslam əxlaqı və qayda-qanunlarını öyrənmişdi. O, dindarlıqda, istedad və ağılda qadınların ən üstünü idi. Həmidə deyir: "Nəcmə bizim evə gələndə Peyğəmbəri (s) yuxuda gördüm. Həzrət mənə buyurdu: "Ey Həmidə! Nəcməni oğlun Musaya (ə) bağışla (onunla evləndir). Şübhəsiz, tezliklə Yer üzünün ən yaxşısı ondan dünyaya gələcək."
Mən bu göstərişə əməl edib Nəcməni oğlum Kazimlə (ə) evləndirdim. İmam Rza (ə) da ondan dünyaya gəldi."
Nəcmə Allahın zikrinə, münacata və ibadətə o qədər vaxt ayırırdı ki, imam Rzaya (ə) süd verdiyi müddətdə qohumlarına deyir: "Dayə tutmaqla mənə kömək edin."
Ondan soruşdular ki, sənin südünmü azalıb?
O isə belə deyir: "And olsun Allaha, südüm azalmayıb. Amma bu uşağa qayğı göstərməyə başladığım vaxtdan yerinə yetirmək istədiyim namaz və zikrlərim azalıb. Daha artıq ibadət və münacatlar üçün köməyə ehtiyacım var."
İmam Rzanın (ə) anası həzrət Nəcmədən belə nəql olunur: "Oğluma hamilə olduğum vaxt yatanda öz bətnimdən həmd və zikr səsləri eşidərkən qorxardım. Amma yuxudan ayılandan sonra heç nə eşitmirdim. O, dünyaya gələndə bir əlini yerə qoydu və başını səmaya qaldırıb, dodaqlarını hərəkətə gətirdi. Elə bil, nəsə deyirdi. Bu anda atası Musa ibn Cəfər (ə) mənim yanıma gəlib, buyurdu: "Ey Nəcmə! Allahın kəraməti sənə mübarək olsun!"

Adı: Əli (ə)
Məşhur ləqəbi: Rza
Künyəsi: Əbülhəsən
Atası: Musa (ə)
Anası: Nəcmə
Doğum tarixi: 148-ci hicri-qəməri ili, 11 zilqədə
Doğulduğu yer: Mədinə
İmamət müddəti: 20 il
Ömrü: 55 il
Şəhadət tarixi: 203-cü hicri-qəməri ili, səfər ayının axırı
Qatili: Məmun (həzrəti zəhərləmişdir)
Dəfn yeri: Məşhəd şəhəri

## İmamın
## Rza adlanmasının səbəbi

İmam Əli ibn Musanın (ə) məşhur ləqəbi Rzadır. Rəvayətdən belə bəlli olur ki, o həzrətin Rza adlanmasının bir neçə səbəbi vardır:

1. O həzrət Allahın asimanda seçdiyi, Peyğəmbərin (s) və məsum imamların Yer üzündə razı olduğu və bəyəndiyi bir şəxsdir.

2. Şiə və əhli-sünnə, hətta, müxaliflər də ondan razı olmuşlar.

3. O həzrət Allahın razılığına razı idi. Səbir məqamından da üstün olan bu gözəl və dəyərli məqam imam Rzada (ə) daha açıq-aydın görünürdü. Rəvayət olunub ki, o həzrətin üzüyünün qaşında bu cümlə həkk olmuşdu: "Maşaəllahu la qüvvətə illa billah!" (Hər nə Allahın istəyi ilədir, Ondan başqa heç bir qüvvə və qüdrət sahibi yoxdur!)

Qeyd etmək lazımdır ki, bütün məsumlar Allahın razılığına razı olmuşlar və Allah da onlardan razı imiş.

Ancaq imamın (ə) yaşadığı dövrdə belə bir yüksək əxlaqi səciyyə İslam üçün çox zəruri və dəyərli idi. Ona görə də bu xislət həzrətdə daha çox büruzə verir, dövrünün mürəkkəb çətinliklərini böyük səbir, tədbir və xüsusi dözümlülüklə həll edir.





## İmam Rza (ə) Harunun dövründə

Harun hələ hakimiyyətdə ikən yoldaşı Zübeydədən doğulan Məhəmməd Əmini öz vəliəhdi seçib, hamıdan ona beyət topladı və anası iranlı olan Məmunu isə ikinci vəliəhdi təyin etdi.

193-cü hicri ilində xəbər verirlər ki, Xorasan əyalətinin şəhərlərində camaat qiyama qalxmış, ordu başçıları nə qədər çalışsalar, qiyamı yatıra bilmirlər. Harun özü vəzir və müşavirləri ilə məsləhətləşdikdən sonra belə qərara gəldi ki, şəxsən Xorasana gedib, xilafətin gücündən istifadə edərək qiyamı yatırtsın. Bu məqsədlə oğlu Əmini Bağdadda öz yerində saxlayıb, Xorasana vali təyin etdiyi oğlu Məmunu isə özü ilə apardı.



Harun qiyamı zahirdə yatırda bilsə də, lakin özü bir daha xilafətin mərkəzi olan Bağdada qayıda bilmədi. Beləliklə, hicrətin yüz doxsan üçüncü ili cəmadis-sani ayının üçündə Tus şəhərində dünyasını dəyişdi və iki rəqib qardaşı siyasi səhnədə öz ixtiyarına buraxdı.

İmam Rza (ə) iyirmi il sürən imamlıq müddətinin on ilini Harunla, beş ilini Əminin xilafəti və digər beş ilini də Məmunun xilafəti dövründə keçirmişdir.

İmam Rza (ə) Məmunun xilafəti başlayanadək öz vətəni Mədinə şəhərində yaşayır. Məmun hakimiyyətə gəldikdən sonra öz xəbis məqsədinə çatmaq üçün imamı Xorasana dəvət edir.

## Məmunun imam Rzanı (ə) Mədinəyə dəvət etməsi

Məmun birinci dəfə hörmətlə imam Rzanı (ə) Əli (ə) nəslinin adlı-sanlı şəxsləri ilə birlikdə xilafət mərkəzinə dəvət etdi.

İmam Rza (ə) əvvəlcə bu dəvəti qəbul etmədi. Lakin Məmunla aralarında gedən çoxlu məktublaşmalar və bir sıra təhdidlərdən sonra, nəhayət, Əli (ə) nəslindən olan tanınmış şəxslərlə birgə Mərvə doğru hərəkət etdi.

Məmun imam Rzanın (ə) karvanını müşayiət edən məmura tapşırmışdı ki, karvandakılara, xüsusilə, o həzrətə (ə) hörmət göstərsin. Ancaq imam (ə) camaatı məsələdən xəbərdar etmək üçün bilərəkdən səfərdən narazı qaldığını bildirirdi.



O həzrət Mədinədən çıxmağa hazırlaşanda, qohum-əqrəbasını toplayıb, onun halına ağlamasını istəmiş və buyurmuşdur: “Mən bir daha öz ailəmə tərəf qayıtmayacağam.”

daha Sonra Peyğəmbərin (s) məzarı ilə vidalaşmaq üçün o həzrətin məscidinə daxil olur. İmam neçə dəfə vidalaşsa da, yenə məzara tərəf qayıdaraq uca səslə ağlayır. Sistani yazır:



“Bu zaman o həzrətin yanına gəlib, salam verərək uğurlu səfər dilədim. İmam (ə) buyurdu: “Mənə yaxşı-yaxşı bax, cəddimin yanından uzaqlaşıb, qürbətdə öləcəyəm və Harunun yanında dəfn olunacağam.”



İmam Rzanın (ə) karvanının yola düşməsi

Məmunun göstərişinə uyğun olaraq imam Rzanın (ə) karvanı İrana tərəf yola düşdü. Karvan Nişapura çatdıqda camaat küçələrə axışdı, həzrətin dəvəsinin ətrafına toplaşdılar. Hamı imamı gördüyünə görə sevinirdi. Çoxları sevincindən ağlayırdı. Hər kəs imamla söhbət etmək, sualına cavab almaq istəyirdi. Şəhərin böyüklərindən bir neçə nəfər irəli gəlib, dedi:

“Ey Peyğəmbər övladı! Şəhərimizə xoş gəlmisən. Biz hamımız səni qarşılamağa hazırıq, evimizə gəl, qonağımız ol.”



İmam Rza (ə) camaata bir nəzər saldı. Divarın kənarında qoca bir qadın dayanmışdı. O, imamı görə bildiyinə görə, bir kənara çəkilib, ağlayırdı. Həzrət ona tərəf yaxınlaşıb, buyurdu: “Mən bu qoca qadının evinə gedirəm.”

Qoca qadının sevincdən gözləri parladı. Çadrasının ucu ilə yaşla dolmuş gözlərini sildi. O, gözləmədiyi bir xəbərdən özünü itirmiş, dili söz tutmurdu. “Qədəmlərin gözüm üstə olsun, ey Fatimənin oğlu, buyur!” – dedi.

Onlar yola düşdülər və qarının evinə çatdılar. İmam dəvəsindən endi və qarının evinə daxil oldu. Həzrət Nişapurda olduğu müddətdə onun evində qaldı. Camaat dəstə-dəstə qarının evinə gəlir və imamla görüşürdülər.

İmam artıq yoluna davam etmək istəyirdi. Qarı həyətdə oturmuşdu. Həzrət cibindən bir badam dənəsi çıxardıb, həyətin bağçasında əkəndən sonra qarıya buyurdu: “Bu badam tumu cücərərək böyük bir ağaca çevriləcək. O da məndən sənin evində bir yadigardır.”

Həzrət bunu deyib, evdən çıxdı.

Sonralar imamın buyurduğu kimi badam tumu yavaş-yavaş böyüyüb, gövdəli bir ağac oldu. Qarı hər vaxt imam üçün darıxsaydı, ağacın budağından yapışar və salavat göndərərdi.

## İmamın paytaxta çatması

İmam Rzanın (ə) karvanı şəvval ayının onunda Mərv şəhərinə çatdı. Şəhərdən neçə fərsəx aralı Məmun, Fəzl ibn Səhl və Bəni Abbasdan olan digər əmirlər və böyük şəxslər imamı qarşılamağa çıxaraq xüsusi hörmətlə karvanı şəhərə daxil etdilər.

Məmunun göstərişi ilə rahatlıq üçün lazım olan hər cür şərait imamın öz ixtiyarına qoyulmuşdu. Bunlar hamısı Məmunun məkrli planı idi.

Yol yorğunluğunun çıxması məqsədilə bir neçə gün davam edən istirahətdən sonra imam Rza (ə) ilə Məmun arasında müəyyən müzakirələr başladı və o, özündə sonra xilafəti ona (ə) tapşırmaq qəsdində olduğunu dedi. Məmunun əsl məqsədindən xəbəri olan imam bu təklifdən ciddi şəkildə imtina etdi. Fəzl ibn Səhl heyrətlə deyir: “Xəlifəlik məqamını o günkü kimi heç vaxt dəyərsiz və puç olduğunu görməmişdim. Məmun hakimiyyəti Əli ibn Musa Rzaya (ə) verir, o isə hakimiyyəti qəbul etmirdi.”

İmam Rzanın (ə) xilafəti qəbul etməyəcəyini, bəlkə də, qabaqcadan ehtimal verən Məmun dedi: “İndi ki belədir, onda vəliəhdliyi qəbul et!”

İmam Rza (ə) buyurdu: “Məni bu işdə də üzrlü hesab bil.”



Ancaq Məmun bu dəfə imamın üzrünü qəbul etməyib, sərt və qəzəbli halda dedi: “Ömər ibn Xəttab vəfat edərkən altı nəfərdən ibarət şura təyin etdi. Ömər həm də vəsiyyət etmişdi ki, kim müxalifət etsə, boynu vurulsun. İndi sən də mənim təklifimi qəbul etməlisən! Çünki mən bundan başqa çarə görmürəm.”

Məmun əslində bu sözlərlə imamı hədələyirdi. Sonra daha açıq şəkildə imamı təhdid edib dedi: “Sən həmişə mənim fikrimin əksinə çıxır, özünü mənim qüdrətimdən amanda hiss edirsən. And olsun Allaha, əgər vəliəhdlikdən imtina etsən, səni zorla onu qəbul etməyə məcbur edəcəyəm! Əgər onda da qəbul etməsən, səni öldürəcəyəm!”

İmam Rza (ə) məcbur olub, məsləhət üzündən onun təklifini qəbul edərək buyurdu: “Mən vəliəhdliyi bu şərtlə qəbul edərəm ki, ölkə işlərinə heç vaxt dəxalət etməyib, hakimiyyət dairələrində də kimisə təyin edib-çıxarmayıb, hökm və fətva kimi icra işlərindən də kənar duracağam.”



**İnsanların ən elmlisi və səbirlisi**

Əli ibn Məhəmməd ibn Cəhm deyir:

Bir gün Məmunun məclisinə getmişdim. İmam Rza (ə) da orada idi. Məmun imamdan suallar soruşurdu və həzrət də cavablarını verirdi. Məmun bir də soruşdu və həzrət yenə cavabını verdi. Məclisdə imamın (ə) əmisi Məhəmməd ibn Cəfər də iştirak edirdi. Məmun onun əlindən tutub, dedi: Qardaşın oğlu barədə fikrin nədir?

Dedi: O, alim bir insandır və mən onun təhsil üçün başqasının yanına getdiyini görmədim (ona Allah tərəfindən verilib).

Məmun ona dedi: Qardaşın oğlu həzrət Rza (ə) risalət ailəsinə mənsubdur. Peyğəmbər (s) onların barəsində belə buyurmuşdur: “Bilin ki, mənim itrətimin yaxşıları və pakları uşaq ikən insanların ən səbirlisi, böyük ikən ən alimidir. Onlar sizi qurtuluşdan uzaqlaşdırmır və cəhalətə tərəf aparmır.”

Məclisdən sonra imam Rza (ə) sakin olduğu evə qayıtdı. Həmin günün səhərisi həzrətin hüzuruna gedib, Məmunla o həzrətin əmisi arasında olan söhbəti imama danışdım. İmam bir mənalı təbəssümlə buyurdu: “Ey ibn Cəhm! Məmunun sözləri səni aldatmasın. Çünki o, tezliklə məni gözlənilməz vaxtda qətlə yetirəcək və Allah özü intiqamımı ondan alacaq.”

## İmam Rzanın (ə) qətiyyətli cavabları



Məmunun göstərişi ilə böyük xristian, yəhudi, sabei və digər din və məzhəblərin, habelə əqidəvi məktəblərinin başçıları, filosof və alimlərdən ibarət bir məclis təşkil edildi. İmam Rza (ə) da bu məclisə dəvət olundu. Həzrət Məmunun cavabında buyurdu: "Sənin məkrli niyyətindən xəbərim vardır. Sabah inşallah, məclisdə iştirak edəcəyəm."

Həzrət məclisdə iştirak etdi və din alimlərinin müxtəlif suallarına cavab verdi.

Müsəlmanların arasında bütün elmləri təfərrüatı və dəqiqliyi ilə bilən bir alimin olması onları heyrətə salmışdı. İmam Rza (ə) yepiskop Casliqin sualları qarşısında həzrət Məhəmmədin (s) sonuncu peyğəmbər olmasını İncilin özü və həzrət İsanın (ə) sözləri əsasında sübuta yetirdi. Casliq imamın hikmətli sözlərini dinlədikdən sonra dedi: Həqiqətən sən deyən kimidir. And olsun Allaha, müsəlmanlar arasında sənin kimi bir şəxsin olmasına heç inana bilmirəm!



## Yağış namazı

İmam Rzanın (ə) vəliəhd olmasından bir müddət sonra yağış yağmadı. Məmunun ətrafına toplaşmış xəbis və dünyapərəst adamlardan bəziləri şayiə yayırdılar ki, yağışın yağmaması, Əli ibn Musanın (ə) vəliəhd olmasına görədir. Bu sözlər Məmuna çatdı. O, imam Rzadan (ə) xahiş etdi ki, yağışın yağması üçün dua etsin. Həzrət bazar ertəsi gününü istisqa namazı üçün təyin edərək buyurdu: "Dünən gecə yuxuda Peyğəmbəri (s) gördüm. O, Əmirəlmöminin Əli (ə) ilə mənim yanıma gəlib, buyurdu: Oğlum, bazar ertəsi gününədək səbir elə. Sonra həmin gün Allah dərgahından yağış istə. Allah yağış göndərəcək və camaat sənin Allah yanında olan məqamını başa düşəcək."



Təyin edilmiş gün yetişdi. İmam Rza (ə) səhraya getdi. Camaat da evlərindən bayıra çıxdılar. İmam namazdan sonra minbərə qalxıb, Allaha həmd edərək dedi: "İlahi! Sən, biz risalət ailəsinə böyüklük və kəramət bağışladın. İnsanlar Sənin əmrinlə bizə tərəf yönəldi. Onlar Sənin rəhmət, ehsan və nemətinə ümid edirlər. Öz faydalı, geniş və zərərsiz yağışını onlara göndər! Ancaq bu dəfə camaat öz evlərinə qayıtdıqdan sonra yağışını nazil et."

Rəvayət belədir: "And olsun Allaha! Elə həmin an səmada buludlar hərəkətə gələrək ildırım çaxdı. Camaat həyəcanlandı və yağış yağmamış öz evlərinə qayıtmağa çalışdılar. Həzrət onlara buyurdu: Sakit olun, bu buludlar sizin üçün deyil. Bunlar filan məntəqəyə aiddir. Bir azdan o buludlar getdi və başqa buludlar göyün üzünü aldı. Yenidən ildırım çaxdı. Camaat evlərinə getmək istəyəndə imam buyurdu: Bu buludlar da sizin üçün deyil. Bunlar filan məntəqənindir. Beləliklə, on dəfə bulud gəldi və oranın səmasından ötüb keçdi. İmam da bu buludların onlara aid olmadığını buyurdu. On birinci dəfə bulud gələndə imam camaata buyurdu: Allah bu buludları sizin üçün göndərmişdir. Allahın fəzl və kərəmi qarşısında şükür edin və evlərinizə dönün. Siz evlərinizə çatmayanadək yağış yağmayacaq. Sonra isə Allahın kərəminə layiq olan bir yağış yağacaqdır.

İmam bunu deyib, minbərdən aşağı endi. Hamı evinə qayıtdı. Bu zaman bərk yağış yağdı. Bütün hovuzlar, çalalar və çaylar su ilə doldu. Camaat sevinclə deyirdi: Allahın kəraməti Peyğəmbər övladına mübarək olsun!"

Daha sonra imam (ə) camaatla görüşdü, onlara düz düzgün anlayış verdi və Allahın nemətləri qarşısında şükür etməyə çağırdı."



Kinli həyasızın cəzası

Qeyri-adi yağış yağmağı hadisəsi hakimiyyədə olan bədxah və qərəzli ünsürlərə böyük zərbə idi. Odur ki, Məmuna dedilər ki, bu qəribə təsadüf camaatın Rzaya (ə) sevgisini artıracaq və nəhayət, xilafət məqamının əliniz-nizdən çıxması ilə nəticələnəcək.

Beləliklə, bir gün Məmunun sarayının əyanlarından olan Həmid ibn Mehran adlı biri imama (ə) kinayə ilə dedi:

Ey Musa oğlu, daha bu həddi aşmaqdır! Allah yağışı Öz təqdiri izrə göndərdiyi halda sən isə onu öz duan sayəndə yağdığını iddia edir, özünü Allah yanında böyük məqam sahibi olduğunu təzahür edirsən. Yəni, İbrahim Xəlilin (ə) Allahın izni ilə quşları diriltdiyi möcüzəyə qadir olduğunumu güman edirsən? Əgər belədirsə, onda xəlifə Məmunun taxtı üzərində nəqş edilən bu iki şir şəklinə əmr et ki, canlanıb, mənə hücum etsinlər! O vaxt göstərdiyin möcüzə də sübuta yetər. Bəs, yaxşı olar ki, adi təbii qayda üzrə öz vaxtında yağan yağışı sənin kəramətin hesab etməyək.

İmam Rza (ə) o iki şirin şəklinə belə əmr etdi: “Ey şirlər, dərhal canlanıb, bu xəbisi tutun!”

Bu vaxt divardakı rəsmlər iki canlı şirə çevrilərək Həmid ibn Mehrana tərəf atılıb, onu parçaladılar və hətta murdar qanını da yaladılar.

Bu qeyri-adi vahiməli səhnəni müşahidə edənlərin hamısı, o cümlədən, Məmunun özü də huşdan getdi.

Şirlər imam Rzaya (ə) baxaraq o həzrətin yeni əmrini gözlədilər. Nəhayət, hərikisi imamın (ə) göstərişi ilə taxtın üzərindəki şəkillərə döndülər.

## İmam Rzanın (ə) şəhadəti



Bir çox qəti-mötəbər rəvayətlərə əsasən, imam Rza (ə) Məmunun göstərişi ilə və onun öz hüzurunda şəhadətə yetmişdir. Məmun hakimiyyəti təhlükədən qormaq üçün imamı Xorasana çağırıb, onu (ə) bir hiylə ilə özünə cəlb etmək istəsə də, imamın qətiyyətli rəftarı və fikirləri ilə qarşılaşdıqdan sonra başa düşdü ki, onun fikirləri və davranışı daha böyük təhlükədir. Hələ Abbasilər də bir tərəfdən onu (ə) öz vəliəhdi təyin etdiyinə görə təhdid edirdilər. Nəhayət, Məmun öz məkrli planını həyata keçirməyi və həzrəti öldürməyi qərara aldı.

Məmun çox çalışdı ki, bu əməl məxfi və gizli surətdə baş versin, bu məsələ onun hakimiyyətinə problem yaranmasın.

O, bu cinayəti ilə dünya və axirətinə əhəmiyyət vermədən bir gün gecə vaxtı onu həyata keçirdi və imam Rzanı (ə) zəhərləyərək şəhid etdi.

Səhər açılanda camaat Peyğəmbər övladının şəhadət xəbərini eşidib, yasa batdı. Onlar baş və sinələrinə döyərək deyirdilər ki, Məmun hiyləgərliklə imamı (ə) şəhid etmişdir. Onlar “Məmun Peyğəmbərin övladını öldürdü!...” – deyə, fəryad edirdilər.



Beləliklə, imam Rza (ə) 203-cü hicri-qəməri ili, səfər ayının sonuncu günü 55 yaşında Məmunun əmri ilə şəhid oldu və gecə vaxtı qərib diyarda dəfn edildi.



## O həzrətin kəlamlarından:

"Allahın az ruzisinə razı olan kəsin Allah da az əməlindən razı olar."

"Sükut özü hikmət qapılarından biridir."

"Bir-birinizin görüşünə gedin ki, dostluğunuz möhkəmlənsin."



# İmam Rza (ə)

